Azərbaycan Respublikası
Nazirlər Kabinetinin 2026-cı il
“ 25 ” iyun tarixli
198 nömrəli Qərarı ilə
**təsdiq edilmişdir.**

**Üfüqi monitorinqə qəbul edilən vergi ödəyiciləri tərəfindən daxili nəzarət sisteminin qurulması və mümkün vergi riskləri barədə məlumatın, həmin risklərə nəzarət prosedurunun vergi orqanına təqdim edilməsi**

# QAYDALARI

## 1. Ümumi müddəa

Bu Qaydalar Azərbaycan Respublikası Vergi Məcəlləsinin 38-1.10.2-ci maddəsinə əsasən hazırlanmışdır və üfüqi monitorinqə qəbul edilən vergi ödəyiciləri tərəfindən daxili nəzarət sisteminin qurulması və mümkün vergi riskləri barədə məlumatın və həmin risklərə nəzarət prosedurunun vergi orqanına təqdim edilməsi qaydasını tənzimləyir.

## 2. Əsas anlayışlar

2.1. Bu Qaydaların məqsədləri üçün istifadə olunmuş əsas anlayışlar aşağıdakı mənaları ifadə edir:

2.1.1. **daxili nəzarət sistemi** – vergi ödəyiciləri tərəfindən sahibkarlıq fəaliyyətinin qanunvericiliyin tələblərinə uyğun aparılması üçün mühasibatlıq, vergi və digər hesabatların vaxtında və düzgün hazırlanmasına yönəlmiş təşkilati tədbirlər və nəzarət prosedurları sistemi;

2.1.2. **nəzarət prosedurları** – vergi risklərinin müəyyən edilməsi, qiymətləndirilməsi, minimuma endirilməsi və aradan qaldırılmasına yönəlmiş tədbirlər (proseslər) məcmusu.

## 3. Üfüqi monitorinqə qəbul edilən vergi ödəyiciləri tərəfindən daxili nəzarət sisteminin qurulmasına dair tələblər

3.1. Üfüqi monitorinqə qəbul edilən vergi ödəyiciləri tərəfindən daxili nəzarət sisteminin qurulması vergi ödəyicisi tərəfindən müraciət olunan dövr üzrə aşağıdakı tələbləri təmin edən sənədlərin elektron və ya kağız daşıyıcıda təsdiq edilməsini əhatə edir:

3.1.1. nəzarət mühiti ilə bağlı tələblər:

3.1.1.1. daxili nəzarət sistemini tənzimləyən sənədlər vergi ödəyicisi tərəfindən təsdiq edilməlidir;

3.1.1.2. təşkilati strukturun, yaxud işçilərin öhdəlik və səlahiyyətlərinin müəyyənləşdirilməsi təmin edilməlidir;

3.1.2. risklərin idarə edilməsi çərçivəsi ilə bağlı tələblər:

3.1.2.1. vergi qanunvericiliyinin tələblərinə riayət olunması, habelə vergilərin, rüsumların və sığorta haqlarının düzgün hesablanması, tam və vaxtında ödənilməsi təmin edilməlidir;

3.1.2.2. vergi risklərinin müəyyən edilməsi, təhlili, qiymətləndirilməsi, minimuma endirilməsi və aradan qaldırılması təmin edilməlidir;

3.1.2.3. vergi ödəyicisinin maliyyə və əməliyyat göstəricilərinin və aktivlərinin nizamlı və səmərəli idarə edilməsi tələblərinə riayət olunması təmin edilməlidir;

3.1.3. nəzarət fəaliyyəti ilə bağlı tələblər:

3.1.3.1. əməliyyatların aparılmasının razılaşdırılması mexanizmi təmin edilməlidir;

3.1.3.2. vergi və mühasibat uçotu haqqında qanunvericiliyin tələblərinə uyğun olaraq biznes əməliyyatlarının uçotunun aparılması təmin edilməlidir;

3.1.3.3. informasiya sistemlərinə girişə nəzarət və məlumatların tamlığı təmin edilməlidir;

3.1.3.4. təsərrüfat subyektlərinin (obyektlərinin) vəziyyətinə, o cümlədən onların mühafizəsinə, giriş məhdudiyyətlərinə və inventarizasiyasına nəzarət edilməlidir;

3.1.4. monitorinq ilə bağlı tələblər:

3.1.4.1. çatışmazlıqların qiymətləndirilməsini və təhlilini təmin edən davamlı monitorinqin aparılması təmin edilməlidir;

3.1.4.2. sistemin təkmilləşdirilməsi üçün tədbirlərin həyata keçirilməsi təmin edilməlidir.

3.2. Üfüqi monitorinqə qəbul edilən vergi ödəyicisi bu Qaydaların 3.1-ci bəndində qeyd olunan tələbləri təmin edən daxili nəzarət sistemi haqqında sənədləri uçotda olduğu vergi orqanına təqdim edir.

## 4. Üfüqi monitorinqə qəbul edilən vergi ödəyiciləri tərəfindən mümkün vergi riskləri barədə məlumatın və həmin risklərə nəzarət prosedurunun vergi orqanına təqdim edilməsi

4.1. Üfüqi monitorinqə qəbul edilən vergi ödəyiciləri mümkün vergi riskləri barədə məlumatı və həmin risklərə nəzarət prosedurunu Azərbaycan Respublikası Vergi Məcəlləsinin 38-1.5-ci və 38-1.7-ci maddələri ilə müəyyən edilmiş müddətlərdə uçotda olduğu vergi orqanına təqdim edirlər.

4.2. Üfüqi monitorinqə qəbul edilən vergi ödəyiciləri mümkün vergi riskləri barədə məlumatı və həmin risklərə nəzarət prosedurunu bu Qaydalara əlavə edilmiş aşağıdakı formalara uyğun təqdim etməlidirlər:

4.2.1. üfüqi monitorinq məqsədləri üçün vergi ödəyicisində müəyyən edilmiş risklər cədvəli (1 nömrəli əlavə);

4.2.2. üfüqi monitorinq məqsədləri üçün vergi ödəyicisində icra edilən nəzarət prosedurları cədvəli (2 nömrəli əlavə);

4.2.3. vergi ödəyicisinin risklər və nəzarət prosedurlarının uzlaşdırılması cədvəli (3 nömrəli əlavə);

4.2.4. təsərrüfat əməliyyatları üzrə risklər cədvəli (4 nömrəli əlavə).

“Üfüqi monitorinqə qəbul edilən vergi ödəyiciləri tərəfindən daxili nəzarət sisteminin qurulması və mümkün vergi riskləri barədə məlumatın və həmin risklərə nəzarət prosedurunun vergi orqanına təqdim edilməsi Qaydaları”na

**1 nömrəli əlavə**

## 20___ il üzrə üfüqi monitorinq məqsədləri üçün vergi ödəyicisində müəyyən edilmiş risklər cədvəli

______________________________

(vergi orqanının adı)

______________________________

(vergi ödəyicisinin adı, VÖEN-i)

| Sıra №-si | Risk kodu[1] | Vergi növü | Riskin adı | Riskin təsviri | Ehtimal | Səviyyə | Nəticə |
|---|---|---|---|---|---|---|---|
| | | | | | | | |
| | | | | | | | |

______________________________

(vergi ödəyicisinin və ya onun səlahiyyətli nümayəndəsinin soyadı, adı və atasının adı)

______________________ (vergi ödəyicisinin və ya onun səlahiyyətli nümayəndəsinin imzası)

__________ (tarix)

[1] Vergi ödəyicisi tərəfindən hər bir risk üçün müstəqil olaraq müəyyən edilir.

“Üfüqi monitorinqə qəbul edilən vergi ödəyiciləri tərəfindən daxili nəzarət sisteminin qurulması və mümkün vergi riskləri barədə məlumatın və həmin risklərə nəzarət prosedurunun vergi orqanına təqdim edilməsi Qaydaları”na

**2 nömrəli əlavə**

## 20___ il üzrə üfüqi monitorinq məqsədləri üçün vergi ödəyicisində icra edilən nəzarət prosedurları cədvəli

(vergi orqanının adı)

(vergi ödəyicisinin adı, VÖEN-i)

| Sıra №-si | Nəzarət prosedurunun kodu[2] | Nəzarət prosedurunun adı | Aparılma tezliyi | Nəzarətin növü (preventiv/ aşkarlayıcı)[3] | Nəzarət prosedurunun aparılma qaydası | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | | nəzarət prosedurunun aparılma mərhələsi | aparılma metodu (mexaniki / İT vasitəsilə /avtomatlaşdırılmış) | nəzarət prosedurunun həyata keçirildiyi informasiya sistemi | nəzarət prosedurunun aparılmasını təsdiq edən sənədlər | nəzarət prosedurunun aparılmasına cavabdeh olan bölmə | nəzarət prosedurunun aparılmasına cavabdeh olan şəxsin vəzifəsi | nəzarət prosedurunun aparılmasını tənzimləyən təşkilati və inzibati sənədlər |
| | | | | | | | | | | | |
| | | | | | | | | | | | |

(vergi ödəyicisinin və ya onun səlahiyyətli nümayəndəsinin soyadı, adı və atasının adı)

(vergi ödəyicisinin və ya onun səlahiyyətli nümayəndəsinin imzası)

(tarix)

[2] Vergi ödəyicisi tərəfindən hər bir nəzarət proseduru üçün müstəqil olaraq müəyyən edilir.

[3] Preventiv nəzarət prosedurları – təsərrüfat əməliyyatları icrasına başlamamışdan və ya idarəetmə qərarı qəbul edilməmişdən əvvəl həyata keçirilən nəzarət tədbirləridir.

Aşkarlayıcı nəzarət prosedurları – təsərrüfat əməliyyatları zamanı və ya onların başa çatmasından sonra həyata keçirilən nəzarət tədbirləridir.

“Üfüqi monitorinqə qəbul edilən vergi ödəyiciləri tərəfindən daxili nəzarət sisteminin qurulması və mümkün vergi riskləri barədə məlumatın və həmin risklərə nəzarət prosedurunun vergi orqanına təqdim edilməsi Qaydaları”na

**3 nömrəli əlavə**

## 20___ il üzrə vergi ödəyicisinin risklər və nəzarət prosedurlarının uzlaşdırılması cədvəli

______________________________

(vergi orqanının adı)

______________________________

(vergi ödəyicisinin adı, VÖEN-i)

| Sıra №-si | Risk kodu[4] | Riskin adı | Nəzarət prosedurunun kodu[5] | Nəzarət prosedurunun adı |
|---|---|---|---|---|
| | | | | |
| | | | | |

______________________________

(vergi ödəyicisinin və ya onun səlahiyyətli nümayəndəsinin soyadı, adı və atasının adı)

______________________ ______________________

(vergi ödəyicisinin və ya onun səlahiyyətli nümayəndəsinin imzası) (tarix)

[4] Vergi ödəyicisi tərəfindən hər bir risk üçün müstəqil olaraq müəyyən edilir.

[5] Vergi ödəyicisi tərəfindən hər bir nəzarət proseduru üçün müstəqil olaraq müəyyən edilir.

“Üfüqi monitorinqə qəbul edilən vergi ödəyiciləri tərəfindən daxili nəzarət sisteminin qurulması və mümkün vergi riskləri barədə məlumatın və həmin risklərə nəzarət prosedurunun vergi orqanına təqdim edilməsi Qaydaları”na

**4 nömrəli əlavə**

## Təsərrüfat əməliyyatları üzrə risklər cədvəli[6]

____________________________________________________________

(vergi orqanının adı)

____________________________________________________________

(vergi ödəyicisinin adı, VÖEN-i)

| **Sıra №-si** | **Risk kodu[7]** | **Riskin adı** | **Qarşı tərəf haqqında məlumatlar** | | | **Müqavilənin rekvizitləri** | | **Əməliyyatın müqavilə üzrə məbləği (manatla)** |
|---|---|---|---|---|---|---|---|---|
| | | | **qarşı tərəfin adı** | **qarşı tərəf rezidentdirmi? (1 – bəli, 2 – xeyr)** | **qeydiyyatdan keçdiyi ölkədə qeydiyyat nömrəsi** | **tarixi** | **nömrəsi** | |
| | | | | | | | | |
| | | | | | | | | |

____________________________________________________________

(vergi ödəyicisinin və ya onun səlahiyyətli nümayəndəsinin soyadı, adı və atasının adı)

____________________
(vergi ödəyicisinin və ya onun səlahiyyətli nümayəndəsinin imzası)

____________
(tarix)

---

[6] Cədvəl məlumatları hər bir təsərrüfat əməliyyatları üzrə ayrılıqda doldurulur.
[7] Vergi ödəyicisi tərəfindən hər bir risk üçün müstəqil olaraq müəyyən edilir.